# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən aprelin 15-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Kürdəmir şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl nazir və Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Görüş zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərlərinin isə qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

* * *

Mədəniyyət naziri Anar Kərimov aprelin 15-də Xaçmaz və Şabran sakinləri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, qəbuldan əvvəl mədəniyyət naziri Anar Kərimov və Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev Ümummilli Lider Heydər Əliyevin Xaçmaz şəhərindəki abidəsini ziyarət edərək önünə tər çiçəklər qoyublar.

Daha sonra Xaçmaz Tarix-Diyarşünaslıq Muzeyində mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev və nazirliyin məsul əməkdaşlarının da iştirakı ilə vətəndaşların qəbulu keçirilib.

Qəbulda nazir Anar Kərimov Xaçmaz və Şabran sakinlərinin müraciətlərini, ayrı-ayrı məsələlərə dair xahiş və təkliflərini dinləyib. Vətəndaşların müraciətləri əsasən əməyin qiymətləndirilməsi, işlə təmin olunma, iş yerinin dəyişdirilməsi və digər məsələlərlə bağlı olub.

Nazir müraciətlərdə qaldırılan məsələlərin operativ şəkildə araşdırılması və qanunvericiliyə uyğun həlli ilə bağlı müvafiq tapşırıqlar verib.

* * *

Aprelin 15-də Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev İsmayıllı və Ağsudan olan vətəndaşları qəbul edib.

Komitənin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstəsi qoyularaq xatirəsi ehtiramla yad edilib.

İsmayıllı şəhərindəki Heydər Əliyev Mərkəzində keçirilən qəbul zamanı vətəndaşların müraciətləri dinlənilib. Komitənin fəaliyyət istiqamətlərinə aid olan müvafiq müraciətlərdən bəziləri yerində həllini tapıb, digərlərinin araşdırılaraq həll edilməsi məqsədilə aidiyyəti üzrə tapşırıqlar verilib.

* * *

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Füzuli rayonunun Horadiz şəhərində vətəndaşları qəbul edib. Bu barədə AZƏRTAC-a agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən açıqlama verilib.

Qəbuldan əvvəl AAYDA-nın İdarə Heyətinin sədri Saleh Məmmədov və Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül dəstələri düzüb, Ulu Öndərin əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Daha sonra Horadiz şəhərində agentliyin tabeliyində olan "38 N-li Yol İstismarı" MMC-nin inzibati binasında keçirilən qəbulda Füzuli, Beyləqan və Xocavənd rayonlarından olan vətəndaşların müraciət və şikayətləri dinlənilib.

Qəbul zamanı müraciətlər əsasən avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub. Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilib, şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Azərbaycan. - 2022.- 16 aprel.- S.6.